BYTYN ƏLKƏLƏRİN PROLETARLARƏ, BİRLƏŞİN!

QOMMUNIST

ERMƏNİSTAN Q(B)P MQ və JQ-nin GYNDƏLIK ORQANI
ОРГАН ЦК И ЕК КП(б) АРМЕНИИ

21 IJUL
ÇYMƏ
1939-çu il
№ 166 (2486)
QIJMƏTI 10 Q.

Bugynky nəmrədə

- PARTIJA SƏRƏLARƏNA QƏBUL IŞINƏ VƏ PARTIJAJA JENI QƏBUL OLUNANLAR ARASƏNDA APARƏLAÇAQ IŞLƏRƏ XYSUSI DIQQƏT JETIRMƏLI (Baş məqalə).
- IJULUN 18-də QƏZƏL MEJDANDA FIZQULTURACƏLARƏN YMUMITTIFAQ PARADƏ. (1-çi səh).
- PARTIJA HƏJATƏ (2-çi səh.)
- PARTIJAMƏZƏN QƏZƏL FONDUNA PROPAQANDA VƏ AGITASIJA HAVA VƏ SU KIMI LAZƏMDƏR (2-çi səh.)
- AZƏRBAJÇAN SSR I-çi CAQIRIŞ BAŞ SOVETININ IKINÇI SESSIJASƏNDA (3-cü səh.)
- XARIÇI ƏLKƏLƏRDƏ (4-cü səh).

Partija sıralarına qəbul işinə və partijaja jeni qəbul olunanlar arasında aparılaçaq işlərə xysusi diqqət jetirməli

Partija sıralarına jeni yzv və qandidatların qəbulu hər bir partija təşkilatının myhymm və məs'ul vəzifəsidir. Bolşeviqlər partijası, partija sıralarına qəbul işinin doqru və dyzgyn qojuluşuna həmişə bəjyk əhəmijjət yermişdir.

YIQ(b)P XVIII Qurultajı partija sıralarına jeni qəbul şərtlərini myəjjən etdikdən sonra jeni ustava əsasən Ermənistan Qommunist (bolşeviqlər) Partijasının boju (jeni qəbul olunanlar hesabına) xejli artmışdır.

Bu hal hər bir rajon və ilk partija təşkilatının partija qarşısında məs'ulijjətini artırır, jeni qəbul olunan partija yzv və qandidatı ilə gyndəlik iş aparmaqı onlara qajqılı mynasibət göstərməji, bolşevik təşkilatçılıqı tradisijalarını onlara öjrətməji tələb edir. Partijanın hər bir yzvy, partija sıralarına jeni qəbul edilmiş yzv və qandidatların artım inkişaf etmələrinə hər vəçhlə kömək etməli, özynyn bilik və iş təçrybəsini onlara öjrətməlidir.

Partijaja jeni yzv və qandidatların qəbul edilməsi işi ən məs'ulijjətli partija vəzifələrindən biri kimi qarşıja qojulmuşdur. Partijaja qəbul olunmaq haqqında verilən ərizələrin ilk partija təşkilatlarında və rajqomlarda ajlarla jatım qalması, bu ərizələrin arxasında çanlı adamların, Lenin-Stalin işi uqrunda qabaqçıl mybarizlər sırasına girməjə calışan adamların durduqunu görməjib, hiss etməmək kimi hallar xysusilə dözylməz hesab edilməlidir.

Elə etmək lazımdır ki, hec bir ərizə partija təşkilatlarında jatım qalmasın. Bu ərizələr joxlanılandan və YIQ(b)P MQ-nın bytyn göstərişlərinə əməl edildikdən sonra həmin ərizələr dərhal partija jığıncaqlarında, partija rajqomunun myzakirəsinə verilməlidir. Rajon partija komitələri vətənin ən jaxşı oqullarını secib partija sıralarına qəbul etmək işində jerli partija təşkilatlarına jaxından kömək etməli və onlara operativ rəhbərlik göstərməlidir. Partija sıralarının gələcəkdə daha da artırılması üçün YIQ(b)P XVIII Qurultajının partija ustavındakı dəjişikliklər haqqında qərarı partija təşkilatları qarşısında jeni və myhymm vəzifələr qojmuşdur. Sosializm quruluşunun jeni dövryndə, sosializmdən tədriçən kommunizmə kecmək dövryndə partijanın vəzifələri bəjyk və məs'uldur.

Jeni partija ustavı gərəksiz və maniələr tərəfdən əngəlləri aradan qaldıraraq ölkəmizin həqiqətən qabaqçıl adamlarının YIQ(b)P sıralarına daxil olması üçün hər çür imkan jaratdı. Partijamıza aqtiv içtimaijjatçılar, gərkəmli istehsalatçılar -sənajein, transportun, sosialist tarlaların ə'lacıları, staxanovcuları, sovet intelligensijasının patriot çöhrələri daxil olurlar.

YIQ(b)P XVIII Qurultajında Ždanov joldaşın mə'ruzəsi və qurultaj tərəfindən qəbul edilmiş partija ustavı əsasında Əştərək rajonunun Nəzrəvan kənd «Qommuna» qolxozu ilk partija təşkilatında 1937-38-çi illərdə 4 partija yzvy və 2 qandidat olduqu halda, 1939-çu il aprel ajının axırında bu ilk partija təşkilatı 15 nəfərə catmışdır ki, bunlardan 10-u partija yzvy və 5-i partija yzvylyjnə qandidatdır. Nəzrəvan kənd ilk partija təşkilatında 1937-38-çi illərdə çəmi 3 nəfər partija yzvy və partija yzvlyjynə bir nəfər qandidat olduqu halda, 1939-çu il janvarın birindən aprel ajının axırına kimi bu ilk təşkilatın boju artaraq 10 nəfərə catmışdır (bunlardan 8-i partija yzvy və 2 nəfəri partija yzvlyjynə qandidatdır).

XVIII partija Qurultajından sonra Spitaq rajonunun bir cox ilk partija təşkilatları partijaja qəbul işlərini partijanın jeni ustavına əsasən təşkil etmişlər. Partijaja qəbul olunmaq ycyn ərizə verən adamların öjrənilməsinə və bunlara fərdi janaşmaja xysusi nəzər jetirərək, həmin təşkilatlar jalnız öz işlərində qabaqçıl adamları dejil, ejni zamanda sosializm vətəninin rifah halına, onun qydrət və inkişafını hər şejdən jyksək tutan fədakar patriotları da partija sıralarına qəbul etmişlər. Rajonun ilk partija təşkilatları xysusi ilə XVIII Qurultajın qərarlarından sonra partijaja qəbul işində xejli nailijjətlər əldə etmişlər. Martın 10-dan ijun ajının 20-nə kimi rajon partija qomiteti ilk partija təşkilatlarından YIQ(b)P sıralarına qandidat olaraq daxil olmaq istəjənlərin 94 işini, partija yzvlyjynə qəbul olunmaq istəjənlərin 43 işini almışdır. Rajon partija qomitetinin bjurosu həmin ərizələrə baxaraq, bunlardan partija yzvlyjynə qandidat olaraq 61 joldaşın və partija yzvlyjynə qəbul barədə 26 joldaşın haqqında əlaqədar ilk partija təşkilatlarının qərarını təsdiq etmişdir. Partijaja jeni qəbul olunan qandidat və yzvlərdən Sarkis Boqosjan (rajonun malijjə şö'bəsi inspeqtoru), Andraniq Hovsepjan (Gyllyçə qolxozunun № 2 briqadasının manqa başçısı), Qarniq Bebojan (Qacaqan kənd qolxozunun (№ 2 briqadiri), Qnariq Qarapetjan (Qızılərən kənd qolxozunun manqa başçısı), Qaruş Şmojan (Hamamlı tam orta məktəb müəllimi) və bir cox başqaları gözəl staxanov iş nymunələri göstərmişlər.

Partija sıralarına qəbul sahəsində rajonda bir sıra ilk partija təşkilatları gözə carpırlar. Hamamlı qolxoz istehsalat partija təşkilatı (bjuro katibi Q. Boqosjan joldaşdır) 11 nəfər partijaja qandidat, 6 nəfər qandidatlıqdan yzvlyjə, rajon içraijjə qomitetinin partija təşkilatı (bjuro katibi Z. Hamparjan) 13 nəfər partijaja qandidat və 5 nəfər qandidatlıqdan yzvlyjə qəbul etmişdirlər və sairə.

Lakin qejd olunan bu nallijjətlərlə birlikdə partijaja qəbul məsələsində bu rajonda hələ bir sıra noqsanlarda vardır. Məsələn: Qaltaxcı stansijasının ilk partija təşkilatı 1934-cü ildə alverci olub 2 il azadlıqdan məhrum edilmiş J. adlı bir nəfəri partijaja qandidat qəbul etmişdir. Cotur kəndinin ilk partija təşkilatı, qomsomol biletində saxtakarlıq edən D. nı partijaja qandidat qəbul etmişdir.

Bu faqtlar onu göstərir ki hələ bir sıra partija təşkilatları partijaja qəbul məsələsində özlərinin məs'ulijjətini hiss etmirlər, onlar partijaja qəbul işində individual janaşma, partijaja daxil olmaq istəjənləri hər tərəfli öjrənmə işini partija təşkilatları jadda möhkəm saxlamalıdırlar.

Ijulun 13-də SSRI Baş Soveti Prezidiumunun sədri M. I. Qalinin joldaş təltif olunmuşlara ordenlər və medallar vermişdir.
ŞƏKİLDƏ: M. I. Qalinin Ermənistan SSR təltif olunmuş müəllimləri ilə birlikdə. (TASS-ın fotoxroniqası).

Ijulun 18-də Qızıl mejdanda fizqulturacıların Ymumittifaq paradı

Ijulun 18-də Qızıl mejdanda fizqulturacıların Ymumittifaq paradı olmuşdur. Mejdan cicəklərlə bəzənmişdir. Dövlət Universal Maqazininin sabiq binası jaşıllıq və cicək həşjaları ilə bəzənmişdir. Cicəklərin icərisində bəjyk bajraq yzərində Leninin və Stalinin portretləri jyksəlir.

Mejdanın ortasında fizqulturacılar qolonnaları durmuşdur. Bular, qardaş respubliqaların deleqasijaları, fizqultura institutunun tələbələri və məktəbliləridir.

Hərarətli ijul gynəşi parlajır. Gəjdə bir bulut belə joxdur.

Qreml saatı on ikini vurur. Coxdan gözlənilən dəqiqə gəlib catmışdır. On minlərlə gənc oqlanlar və qızlar bu dəqiqəni bəjyk daxili həjəcanla gözləjirdilər. Bu zaman Stalin joldaş movzolej tribunasına qalxır. Stalin joldaş ilə bərabər Molotov, Voroşilov, Qalinin, Qaqanovic, Andrejev, Miqojan, Ždanov, Berija Malenqov, Dimitrov, Şkirjatov, Şcerbaqov, Bulqanin, Vışinski, Quznetsov, Mexlis, Budjonnı joldaşlar və başqaları da tribunaja qalxırlar.

Stalin joldaş əlini qaldıraraq jıqılanları təbrik edir. Mejdan boju sevinç və şadlıq təbriki jajılır, qydrətli, coxminli, «ura» səsi gurlajır. Hamı əl calır.

Paradı qəbul edənlər—fizqultura və sport işləri yzrə Qomitetin sədri Sneqov joldaş, YILQGI MQ katibi, Mixajlov joldaş, YIHİMS -nin katibi Şverniq joldaş Spasski dərvazasından avtomobildə gəlirlər. Onlar fizqulturacıların qolonnalarını gəzir və onlarla salamlaşırlar. Salama çavab olaraq dəfələrlə «ura» səsi eşidilir.

Qolonnaları gəzdikdən sonra Sneqov, Mixajlov və Şverniq joldaşlar parad iştirakçılarına nitq ilə myraciət edirlər.

Fizqulturacıların Ymumittifaq paradı başlanır. Bəjyk və parlaq bir mənzərə. Bəjyk bolşeviqlər partijasının jetirdiji və tərbijə etdiji sovet gənçləri öz qyvvələrini, öz qydrətlərini, özlərinin partijaja və Stalin joldaşa hədsiz sədaqətlərini, bizim gözəl vətənimizin daha da möhkəm olması ycyn bytyn qyvvələrini verməjə özlərinin hazır olduqlarını nymajiş etdirirlər.

Sevinçli, ilhamlı yzlər gylyr. Hamının gözy tribunaja —öz silahdaşlar əhatəsində sovet gənçlərinin atası, dostu və tərbijəcisi —Stalin joldaş duran jerə cevrilmişdir. Bu baxışlarda nə qədər oqul nəzakəti və möhəbbəti vardır!

Myttəfiq respubliqaların qolonnaları gəlir, RSFSR fizqulturacılarının qydrətli dəstəsini- Uqrajnanın, Beloru sijanın, Azərbajçanın, Gyrçystanın, Ermənistanın, Tyrkmənistanın, Özbəjstanın, Taçikstanın, Qazaxstanın, Qırqızstanın saqlam və möhkəm fizqulturacıları və fizqulturacı qızları əvəz edirlər. Ajrı- ajrı myttəfiq respubliqaların sportsmenləri bir-birlərindən öz paltarları və öz milli mahnıları ilə fərqlənirlər.

Bunlar bizim —vahid, bərk sıxlaşmış, öz qanı ilə Lenin-Stalin partijasına sədaqətli gözəl sovet gənclərimizdir, bəjyk vətənimizin alovlu patriotlarıdır. Sosializm ölkəsinin, əməkdə möhkəmlənmiş, fiziqi qulturaja jijələnmiş, hərbi biliklərə sahib olmuş şanlı gənçləri Fəhlə-Kəndli hökumətinin ilk caqırışı yzrə hər bir dəqiqədə myqəddəs sovet hydudlarının mydafiəsinə qalqışaqdır.

Mosqva məktəbliləri mejdandan kecirlər. Tribunadan onları hərarətlə qarşılajırlar. Gynəşdən qaralmış möhkəm uşaqlar əllərində ojunçaq avtomobillər, jaxtalar, Sovetlər Sarajının maketini, aeroplanlar, planerlər, modeli, topları, tennis raketqaları aparırlar.

Uşaqların hamısı birdən uça səslə Stalin joldaşı, «Bizim xoşbaxt həjatımız ycyn Stalin joldaşa təşəkkyr» sözləri ilə salamlajırlar.

Stalin joldaş tribunadan onlara hərarətlə gylymsəjir.

Stalin adına Mosqva və Lesqaft adına Leninqrad ordenli fizqultura institutlarının tələbələri gözəl sıralarla mejdana girirlər. Mosqva oblastı fizqultura texniqumunun tələbələri qolonnanı həlqijə alırlar.

Coxsajlı sport çəmijjətləri Qızıl mejdana çanlı jaradıçılıq təşəbbysy və ixtiraçılıq gətirmişlər. «Loqomotiv» çəmijjətinin fizqulturacıları öz bədənlərindən cicəklərlə bəzənmiş gəj parovoz «dyzəltmişlər». «Qurjer qata rının vaqonları» syrətlə gedirlər. Myxtəlif millijjətlərin nymajəndələri vaqonların aqışqalarından partija və hökumət rəhbərlərini salamlajırlar. «Spartaq» çəmijjətinin 2.400 nəfərlik fizqulturacılar qolonnası ipək və cicəklərlə bəzənmişdir. Qolonnanın qabaqında Stalin joldaşın 400 bajraqla əhatə edilmiş bəjyk hejkəli jyksəlir. Spartaqovcular öz qalibijjətləri haqqında raport verirlər. Onlar çəmijjətin futbolcularının, valejbolcularının, boqsjorlarının, gyləşənlərinin, qonqosyrənlərinin, jyngylatljotların (jyngyl aqırlıq qaldıranların) fəth etdikləri 22 quboqları aparırlar.

Mejdan stadiona cevrilir. Gimnast qızlar myrəkkəb gimnastiqalar nymajiş edirlər. Reqordsmen -stangistlər Popov və Xotimski, SSRI cempionu gimnast Ibədullajev çıxış edirlər. Xəlcə yzərində fransuz gyləşi ustalarının bir dəqiqəlik tutuşmaları olur. Cin qabalı səslənir. SSRI boqs yzrə obsoljut cempionu Niqolaj Qarolov və onun müəllimi Qirodozolov rinqə çıxırlar. Avarcılar səkkizliji, SSRI cempionlarının qomandası lodqada «yzyb kecir». Giqant futbol topu ortalığa gəlir. Başda öz qapitanları- ordenli Andrej Starostın olmaqla «Spartaqın» qomandası—futbol yzrə ölkənin cempionu bu topun yzərində görsənir. Qılınç tə'limi ustaları çiddi marşla kecirlər. Onlardan sonra, snajper sənətini mənimsəmiş bir necə jyz qızlar dəstəsi kecir. Qapitalist əhatəsinin olması və bə'zi aqılsız qonşuların həjasız provoqasijalarının gənclərin yzərinə nə kimi vəzifə qojduqunu Sovet gənçləri jaxşı anlajırlar. Bugyn paradda onlar göstərirlər ki, lazım olduqu halda gənç nişancılar, pulemjotcular, şəfqət bacıları, motosiqletlər dəstələri çəhəjə gedəçəklər...Rus xalqı mahnılarının melodijası eşidilir. Mosqva oblastının qolxozcu -fizqulturacıları sosialist tarlalarının məhsuldarlıq simvolu—qızıl dərzlər gətirirlər. Jaşıl cəmənlikdə qarmonun şad səsləri altında ojnajırlar. «Plamja» çəmijjətinin sportsmen qızları çanlı qoridor dyzəldirlər ki, bu qoridorla pajtaxtın caqırışçılarının bataljonları kecir. Fizqulturacı qızlar caqırışçıların yzərinə cicəklər atırlar.

Ordenli «Dinamo» çəmijjəti sportsmenlərinin çıxışı haqqında şejpurlar xəbər verir. Dinamocular, cekistlərin iti gözyndən gizlənməjə təşəbbys edən diversantların tutulmasının metodlarını nymajiş edirlər. Tribunadan tamaşacıları qızqın alqışlajırlar. Qızıl ordu fizqulturacılarının qolonnası ymumi bir şadlıq əmələ gətirir. Dəjyşçilərin möhkəm musqullu bədənləri tunç rəngə calır. Onlar, Stalin, Molotov, Voroşilov joldaşları qydrətli «Ura» ilə salamlajırlar.

***

Sport-gimnastiqa tə'limlərini Mosqvanın məktəbliləri acır. 1200 gənc fizqulturacılar azad hərəkət tə'limlərini, syngy dəjyş tə'limlərini içra edir, qılınç tə'limində, futbolda, qacışda öz myvəffəqijjətlərini göstərirlər. Mejdanda uşaqların dörd bataljonu dyzəlir. Onlar «Paradda parad» ojununu kecirirlər. Uşaq orkestrinə pioner dirizorluq edir. Xırda bir avtomobil bura jaxınlaşır. Maşının icində gənc «qomandan» oturmuşdur. O, raport qəbul edir və bataljonlarla salamlaşır. Tyfənkli pijada dəstələri, gənc dənizcilər təntənəli marşla hərəkət edirlər, süvarilər, velosipedcilər, pulemjotcular, tankistlər, syr'ətlə kecirlər.

...Tribuna qarşısında geniş sahələr acılmış kimi idi və birdən birə uçsuz -buçaqsız ölkəmizin ən uzaq guşələri gərynməjə başlajır. Qazaxstanın zənginlikləri, Taçikistanın pambıq tarlaları, Özbəjstan SSR cicəklənən baqları, Gyrçystanın yzymlykləri acılır... Qardaş respubliqa fəhlələrinin, kəndlilərinin, intelligensijalarının sevinçli əməklərinin mənzərəsi görynyr.

Qırqızstan fizqulturacıları mejdana çıxırlar. «Bəjyk Stalinə- salam!» Qızılar ojnajır, oqlanlar onlara janaşır.

Daqların fonunda acıx gyl rənkli cicəklər arasında alma aqaç görynyr.

Bu— Qazaxstan respubliqasının mənzərələridir. Bu respubliqanın nymajəndələri şəhər zarjadqasını nymajiş edirlər. Mə'dən oçaqının təsvir edən myrəkkəb piramida cicəklənən sovet respubliqasının industrija artımının simvolizasija edir.

Budur- Özbəjstanın fizqulturacıları gəlirlər. Gənclər mahnı oxuja-oxuja qanal qazırlar. Qanal hazırdır, mavi «su» axmaqa başlajır. Fizqulturacılar tribunanın janına bəjyk «pambıq qozası» gətirirlər. Qoza acılır və tamaşacıların qarşısında rəqs edən qız durur. Tyrkmənistan nymajəndələrinin nymajişi də sosialist əməjinin sevinçi haqqında xəbər verir.

Bir dəqiqədən sonra şəkil birdən - birə dəjişir. Tamaşacılar qarşısında artıq öz mə'dənləri və zavodları ilə neft şəhəri —Bakı görynyr. Fizqulturacılar əllərində tyfənk tutmuşlar. Azərbajçan gənclərı staxanovçasına işləməji və xasançasına silaha jijələnməji bacarırlar.

Qarla ərtyly daqların ətəjində uçsuz-buçaqsız dəniz uzanır. Qırmızı alovlu parca -alova cevrilən cınqıı jyksəjə qalxır. Gyrçystan fizqulturacıları «Borba» qəzetinin -Leninciisqracı istiqamətli birinci qejri leqal gyrçy qəzetinin bəjyk maketini qaldırırlar. Fizqulturacılar Stalin joldaşın portretini jyksəjə qaldıraraq və onun haqqında -bytyn dynja zəhmətkeşlərinin sevimli vozdu haqqında mahnılar oxujaraq movzolej janından kecirlər.

Iki respubliqanın- Ermənistan və Uqrajna respubliqalarının nymajəndələri öz cıxışları ycyn temanı öz xalqlarının tarixindəki qəhrəman epizodlardan gətyrmişlər. Ermənistan fizqulturacıları xalq qəhrəmanı—Sasunlu David haqqındakı gözəl legendanı göstərirlər.

Uqrajnanın nymajəndələri, uqrajna xalqının XVII -əsrdə poljaqlara qarşı apardıqı müzəffər mybarizə haqqında, nisbətən az əvvəlki-1918-çi il hadisələri haqqında danışırlar ki, bu zaman uqrajna zəhmətkeşləri rus xalqının qardaşlıq köməji ilə öz ölkələrindən nemes interventlərini qovdular.

Mejdan bojunca çavan qajın aqaç meşəsi uzanır. Kollar arasında sərhədd dirəkləri görynyr. Bu dirəklər birdən- birə 8 qiqant hərifə cevrilir, və «Belorus» sözy əmələ gətirir. Fizqulturacılar qərbdə SSRI mydafiəsinin kecilməz forpost simvolunu əks etdirən myrəkkəb piromida qururlar. Lesqaft adına Leninqrad inistitutu tələbələri öz cıxışlarını şanlı Stalin pilotlarına və hərbi dənizcilərinə həsr edirlər. Onlar «Jyksək dərəçəli pilotaz» gimnastiqasını nymajiş etdirirlər. Mosqva Stalin adına fizqultura institutu tələbələri sportun ali gimnastiqasını göstərirlər. Mejdanda jarısı ucurulmuş kərpy vardır. Uzaxdan motosiqlet səsi eşidilirdi. Motosiqlistlər dajanmır və ətrafa dönmyrlər. Maşınlar artıq kərpy yzərindədir, ətrafı «ucurum» olan jerdə havaja qalxıb jenə jollarına davam edirlər.

Stalin adına fizqultura institutunun qızılbajraqlı hərbi faqulteti dinləjiçiləri və qızıl ordu qomanda hej'ətinin fiziki təhsilini tamamlajıçı qursunun təşkil etdiji bəjyk hərbi ojunla parad parlaqçasına başa catdırılmışdır. Təpə janında sərhədçilər jyksək təpə yzərinə jerləşmişdilər. Onlar şyçaətlə öz sovet torpaqının xain dyşməndən mydafiə edirlər. Az bir sərhəd gözətçilərinin köməjinə Qızıl Ordu hissələri tələsir, aeroplanlar səslənir, Qızıl Ordu hissələri «Jaşasın Stalin joldaş!» «Jaşasın sovet vətəni» səsləri ilə dyşmənin hyçumunu qəhrəmancasına dəf edirlər. Təpə yzərində qırmızı bajraq qalibijjətlə jellənir...

40 min sovet fizqulturacıları—cox millionlu sovet xalqının partija və hökumətə artıq dərəçədə sadiq olan şanlı oqul və qızları -paradının mənzərəsi unudulmazdır.

Qızıl mejdanda ijulun 18-çi gyny bytyn sovet gənclərinin, Sovet ölkəsinin bytyn zəhmətkeşlərinin sevinçli bajramı olmuşdur. (TASS)

PARTIJA HƏJATЬ

Partija sbralarbna jalnbz fərdi secki qajdasb ilə qəbul edilməlidir

YIQ(в)P-nin XVIII Qurultajьndan sonra partija sьralarь dahada artmьşdьr. XVIII Qurultaj tərəfindən qəbul edilmiş YIQ(в)P jeni Ustavь—Lenin Stalin partijasь işinə hədsiz sadiq olan və öz sədaqətlərini dəfələrlə işdə sybut edən adamlarьn partija sьralarьna qəbul edilmələri ycyn bəjyk imkanlar jaratmьşdьr.

YIQ(в)P-nin XVIII Qurultajьndan sonra kecən qьssa myddət ərzində, istər kənd təsərryfat sahəsində calьşanlardan və istərsə Sovet intelligensijasьndan bir cox qabaqcьl adamlar partija sьralarьna qəbul edilmişlər. YIQ(в)P jeni Ustavь ən jaxşь sovet adamlarьnьn, aqtiv və viçdanlь işçilərin partijaja qəbulunu asanlaşdьrmьşdьr. Bundan əvvəl partijaja qəbul olunmaqa lajiq olan adamlar tələb olunan miqdarda reqomendasija tapa bilmədikləri nəticəsində partijadan kənarda qalьrdьlar; indi isə onlar qьssa myddət ərzində reqomendasijalar tapьr və partijaja qəbul olunurlar.

XVIII Qurultajdan sonra partijamьzьn bir cox təşkilatlarь partijaja qəbul işini partijanьn jeni Ustavьna gərə təşkil etmişlər. Adamlarьn öjrənilməsinə və onlara fərdi janaşmaja xysusi nəzər jetirərək, həmin təşkilatlar jalnьz öz işlərində qabaqcьl olanlarь dejil, ejni zamanda sosializm vətəninin rifah-halьnь, onun qydrət və inkişafьnь hər şejdən jyksək tutan fədakar patriotlarь da partijaja qəbul etmişlər. Lakin qejd etmək lazьmdьr ki, bu kimi qabaqcьl partija təşkilatlarьndan başqa bizdə partija ustavьnь jaxşь başa dyşməjən və kejfijjət məsələsini unudub, miqdar dalьnça gedən ajrь-ajrь partija təşkilatlarь da vardьr. Həmin təşkilatlar unudurlar ki, partijaja qəbul zamanь fərdi janaşma partijaja qəbul ycyn əsas prinsip olmaqla, partijaja qəbul məsələsində ən myhymm qəbul olunanlarьn miqdarь dejil, onlarьn kejfijjətidir.

STALIN joldaş XVIII Qurultajda etdiji öz ma'ruzəsində qejd etmişdir: «Partija bilirdi ki, onun sьralarьna jalnьz namuslu və sədaqətli adamlar dejil, habelə partija bajraqьndan öz şəxsi məqsədləri ycyn istifadə etməjə calьşan təsadyfi adamlar da, qarjeristlər də gəlirlər. Partija bilməjə bilməzdi ki, onun gyçy jalnьz yzvlərinin sajьnda dejil, habelə, hər şejdən əvvəl, bunlarьn kejfijjətindədir».

Spitaq rajonunun ilk partija təşkilatlarь xysusilə XVIII Qurultajьn qərarlarьndan sonra partijaja qəbul işində xejli nailijjətlər əldə etmişlər.

Martьn 10-dan ijunun 20-nədək rajon partija qomiteti ilk partija təşkilatlarьndan YIQ(в)P sьralarьna qandidat olaraq daxil olmaq istəjənlərin 94 işini partijaja yzv qəbul olunmaq istəjənlərin isə 43 işini almьşdьr. Rajon partija qomitetinin bjurosu həmin ərizələrə baxaraq, 61 nəfəri partija sьralarьna 26 nəfəri də qandidatlьqdan yzvlyjə qəbul etmişdir.

Partijaja jeni qəbul olunan qandidatlardan və partijaja yzv kecənlərdən Sarkis Boqosjan (malijjə şe'bəsi inspeqtoru), Andraniq Hovsepjan (Gyllyçə qolxozunun № 2 briqadasьnьn manqa başcьsь), Qarniq Bebojan (Qacaqan kənd qolxozunun № 2 briqadiri), Qnariq Qarapetjan Qьzlərən kənd qolxozunun manqa başcьsь), Jero Xojetsjan (Hamamlь kənd qolxozunun №10 briqadasьnьn manqa başcьsь), Parsam Abrahamjan (Hamamlь kənd qolxozunun qolxozcusu) və Qaruş Şmojan (Hamamlь tam orta məktəb myllimi) gəzəl staxanov işi nymunələri göstərmişlər.

Partija sьralarьna qəbul sahəsində rajonda bir sьra ilk partija təşkilatlarь gözə carpьrlar. Məsələn Hamamlь qolxoz istehsalat partija təşkilatь (bjuro katibi Q. Boqosjan joldaşdьr) 11 nəfər partijaja qandidat, 6 nəfər qandidatlьqdan yzvlyjə, Içraijjə qomitetinin partija təşkilatь (bjuro katibi Z. Hambarjan joldaşdьr) 13 nəfər partijaja qandidat, 5 nəfər qandidatlьqdan yzvlyjə, Gyllyçə kənd partija təşkilatь (partija təşkilatьnьn katibi Q. Avetisjan joldaşdьr) 7 nəfər partijaja qandidat, 3 nəfər qandidatlьqdan yzvlyjə qəbul etmişdir və sairə.

Lakin qejd olunan bu nailijjətlərlə bərabər partijaja qəbul məsələsində hələ bir sьra noqsanlar da vardьr.

Qaltaxcь stansijasьnьn ilk partija təşkilatь 1934-cy ildə alverci olub 2 il azadlьqdan məhrum edilmiş J-ni partijaja qandidat qəbul etmişdir.

Cotur kəndinin ilk partija təşkilatь qomsomol biletində saxtakarlьq edən D-nь partijaja qandidat qəbul etmişdir.

Qaraboja kəndinin ilk partija təşkilatь, daşnaq ordusunda xidmət etmiş və istehsalatda özyny doqrultmajan H-nь partijaja qəbul etmişdir.

Ajrь-ajrь ilk partija təşkilatlarьnьn buraxdьqlarь səhvlərin səbəbi odur ki, həmin partija təşkilatlarь ətrafьndakь adamlarь jaxşь tanьmьr və partijaja qəbul işində fərdi secki prinsipinə ciddi surətdə əməl etmirlər. Bizim ölkəmizin ən jaxşь adamlarьnьn YIQ(в)P sьralarьna daxil olmaq ycyn göstərdikləri arzь-Lenin-Stalin partijasьnьn kytlələr arasьndakь bəjyk avtoritetini parlaq surətdə sybut edir. Ən jaxşь adamlarь partijaja qəbul etməklə bərabər partija təşkilatlarь xatьrlamalьdьrlar ki, partijanьn qapьlarьnь təsadyfi adamlarьn yzynə acmaq olmaz cynki bizim partijamьz fəhlə sinifinin şyurlu, qabaqcьl və dəmir intizamlь mytəşəkkil dəstəsidir.

A. Toniqjan
(EQ (в) P Spitaq rajon qomitetinin təşkilat-tə'limatcьlьq şe'bə mydiri)

PARTIJA TARIXINI TƏKBAŞЬNA ÖJRƏNIRLƏR

Jerevan janqьn səndyrən idarəsində calьşan 15 partija yzvy və 6 nəfər partija qandidatlarьnьn hamьsь «YIQ(в)P Tarixinin Qьssa qursu»nu təkbaşьna öjrənirlər. Partija tarixini təkbaşьna öjrənənlər ycyn 4-dəfə qonsultasija və 5-dəfə leqsija kecirilmişdir.

Leqsija və qonsultasijalardan sonra partija tarixini təkbaşьna öjrənənlər ycyn lazьmi göstərişlər verilmiş və onlarьn rast gəldikləri cətin jerlər izah edilmişdir.

Partija yzvlərindən partija tarixini təkbaşьna öjrənən Sarkisjan Setraq, Mxitarjan Hovşep, Hajrapetjan Bunjat və başqalarь öz yzərlərində jaxşь calьşaraq partija tarixini cox diqqətlə öjrənirlər. 31 nəfər partija tarixini təkbaşьna öjrənir. Bunlar partija tarixindən başqa SSRI Baş Sovetinin ycynçy sessijasьnьn materiallarьnь və Ermənistan SSR Baş Sovetinin ikinçi sessijasьnьn materiallarьnь həvəslə öjrənirlər.

«Qarmir Hasaqorz» artelində «YIQ(в)P Tarixinin Qьssa qursu»nun öjrənilməsi işi jaxşь təşkil edilmişdir. Bu arteldə olan 16 nəfər partija yzvy və qandidatlarьndan 10 nəfəri partija tarixini təkbaşьna öjrənir və qalan 6 nəfəri isə az savadlь olduqlarь ycyn dərnəkdə öjrənirlər.

Bu arteldə partija tarixini təkbaşьna öjrənənlər ycyn 3-dəfə qonsultasija təşkil edilmişdir. **Ə. Jaqub**

QƏBUL IŞLƏRINI DAHA JAXŞЬ TƏŞKIL ETMƏLI

Amasija rajonunun Jeni-jol kənd ilk partija təşkilatь (təşkilatьn katibi Imran Nəbijev joldaşdьr) partijaja qəbul işlərini jaxşь təşkil etmişdir.

Bu təşkilat staxanovcu, zərbəci və istehsalatda özyny göstərən jararlь joldaşlardan 13 nəfər partija yzvlyjynə qandidat qəbul etmişdir. Partijaja qəbul edilənlər sьrasьnda qolxozun № 1 cəlcylyk briqadiri əkin işlərində gərkəmli dənyş əldə edən Qafar Səfərov, briqadanьn staxanovcu yzvlərindən Ismajыl Bajramov və Mamoş Əlijev joldaşlar vardьr.

Bundan başqa indijə kimi 6 nəfər partija qandidatь yzvlyjə dəjişilmişdir. Oxçuoqlu kənd ilk partija təşkilatь partija yzvlyjynə 11 qandidat qəbul etməklə, Qulujev Çəfər Qərib oqlu və Çavad Haçьjev joldaşlar isə qandidatlьqdan yzvlyjə dəjişilmişlər.

Rajonun Şurabad, Gelly, Qaraməmməd, Bajtar və sairə bir necə ilk partija təşkilatlarь partija sьralarьna qəbul işlərini jaxşь təşkil etmişdirlər.

Lakin qejd etmək lazьmdьr ki rajonunun Qaracanta kənd ilk partija təşkilatьnda partija sьralarьna qəbul işi olduqça jarьtmazdьr. Bu təşkilat 1931-32-çi illərdən partija yzvlyjynə qandidat olanlar—Səlbinaz Bajramova, Qələndər Əskərov, Xejrənsə Sejidova və başqalarьnьn partija yzvlyjynə dəjişilməsi məsələsi ilə maraqlanmьr. Bu çyr jarьtmaz vəzijjət MTS-nьn partija təşkilatьnda da vardьr. Bu təşkilatdan Mqrdic Xacaturjan, Hovhannes Xacaturjan, Təhməz Dəmircijan və sairə joldaşlar yzvlyjə dəjişilmək ycyn nə qədər calьşьrlarsa bu işdə ilk təşkilat onlarьn qajqьsьna qalmьr.

Amasija rajonunun ilk partija təşkilatlarь partija sьralarьna qəbul işlərini daha jaxşь təşkil etməklə olan noqsanlarь aradan qaldьrmalьdьrlar.

H. Həsən

Partijaja qəbul işlərinə fikir verilir

Kirovaqan rajonunun Arçud ilk partija təşkilatьnda partijaja qəbul işləri jaxşь təşkil edilmişdir. Qolxozun staxanovcularьndan (bunlar sьrasьnda qomsomolcular da vardьr) partija sьrasьna 9 nəfər qəbul edilmişdir.

Rajonun Vartanlь ilk partija təşkilatьnda kecmişdə 4 nəfər partija yzvy olduqu halda indi onlarьn sajь 9 nəfər yzvə və 3 nəfər qandidata catmьşdьr. Qommunistlərin sijasi bilijini jyksəltmək ycyn partija təşkilatcьsь Mehdi Allahverdijev joldaş ajda onlarla 3 dəfə xysusi səhbətlər təşkil etmişdir. Lakin qejd etmək lazьmdьr ki, hər iki təşkilatda staxanovcu qadьnlarьn partija sьralarьna qəbul məsələsi unudulmuşdur.

V. Qaraçajev

ŞƏKILDƏ: Jerevan dəmirjol deposunun qrivonoscu maşinisti, partija qandidatlьqьna jeni qəbul edilmiş Hovagimjan Arşalujs joldaş partija utasьvьnь öjrənirkən. Foto B. Qazazjanьndьr.

YIQ(b)P sьralarьna qəbul işləri jenidən təşkil olunmuşdur

YIQ(в)Partijasь XVIII Qurultajь tərəfindən qəbul edilmiş partija ustavь əsasьnda Jerevan azərbajcanlь pedaqoji məktəbinin ilk partija təşkilatьnda (təşkilatcь Dadaş Oruçov) 1937-38-çi təhsil ilində 9 nəfər partija yzvy, 5 nəfər partija yzvlyjynə qandidat olduqu halda, 1939-çu il ijun ajьnьn 5-nə kimi ilk partija təşkilatьnьn sajь 14 nəfər yzv və 16 nəfər qandidata catmьşdьr.

Qomsomolcularьn və partijada olmajanlarьn partija sьrasьna qəbul işləri jaxşь təşkil olunmuşdur. Abbasov Kərəm, Ismajыlov Ismajыl və Misri Muxtarova joldaşlar YIQ(в)P-nin yzvlyjynə qandidat qəbul olunmuşlar.

Bu məktəbdə osoaviaxim işləri jenidən təşkil olunmuşdur. 1937-38-çi illərdə 60 nəfər Osoaviaxim yzvy olduqu halda, 1939-çu ildə bunlarьn sajь 200 nəfərə catmьşdьr. Yzvlyk haqqlarь vaqtьnda toplanьlmьşdьr. Adil Çamalov (Osoaviaxim təşkitacьsь) joldaş Osoaviaxim işləri ilə daha jaxьndan maraqlandьqь ycyn 500 manatlьq Osoaviaxim lotoreja biletləri realizasija edilmiş və pullarь isə vaqtьnda toplanьlmьşdьr.

1937-38-çi təhsil ilində pedaqoji məktəbində allahsьzlar təşkilatь olmadьqь halda indi 250 nəfər yzvdən ibarət mybariz allahsьzlar təşkilatь vardьr.

Məktəbdə tələbələrdən Voroşilov atьçlarь da hazьrlanmьşdьr.

Ibrahimov Həmzə

Ermənistan patriotlarь caqьrьşa hazьrlanьrlar

Ermənistanьn çavan patriotlarь bəjyk entuzıazm ilə şyçaətli Qьzыl Ordu sьralarьna daxil olmaqa hazьrlanьrlar.

Myəssisələrdə və qolxozlarda, caqrьşcьlar hərbi işi, rus dilini, YIQ(в)P tarixini jaxşь mənimsəmələri ycyn sosjarьş işlərini genişləndirmişlər.

Caqrьşa, Kirovaqan, Əştərək, Spitaq rajonlarь patriotlarь jaxşь hazьrlanьrlar. Caqrьşcьlarьn hərbi hazьrlьq işləri Kirovaqanda jaxşь qurulmuşdur. Kirovaqan rajonu yc kəndin caqrьşcьsь Majmex (2093 metrə qədər jyksəklijində) dəqa hərbi jyryş elmişlər. Spitaq rajonu Bəjyk Pərni kəndində puemjotcu, bombacь, dərnəkləri təşkil olunmuşdur. Dərnəklərə kəndin caqrьşcьlarь ilə qolxozcularda çalь olunaraq, bunlar, Voroşlov atьçьlьq normasьnь artьq vermişlər.

Caqrьşa həmcinin şəhərin Stalin rajonu jaxşь hazьrlanьrki, burada artьq 60% dəşnişanlь- aqtivistlərdir. Dzerzinsqi adьna maşьntikilişi zavodunda Stalin rajon qomitetinin hərbi şe'bə mydiri Evojan joldaşьn rəhbərliji ilə, orduja gedəçək caqrьşcьlarь əvəz etmək ycyn, qadr hazьrlьqьna başlamьşlar. (ETA).

Ymumittifaq fizqulturacь gyny

Ymumittifaq fizqulturacь gyny parlaq xalq bajramьna, sosialist vətəni mydafiəjə sovet xalqьnьn hazьr olduqunu göstərən qydrətli nymajişə cevrilmişdir.

Səhər saat 9-da fizqulturacьlar qolonnalarь Taşkəndin Qьzыl mejdanьnda dyzylmyşdyr.

Şejpur səsləri paradьn başladьqьnь xəbər verir. Lenin ordenli sport çəmijjəti «Dinamo» fizqulturacьlarь kecirlər. Mejdanda yzərində Sovet Ittifaqьnьn qartasь olan bəjyk bir plaqat acьlьr. Onun yzərində bu jazьlar parьldajьr: «Bizim mydafiə edəçək şejimiz vardьr». Fizqulturacьlar tribunanьn ənyndən maketlər aparьrlar, maketlərin yzərində bizim vətənimizin zənginlikləri - kömyr, neft, metall, buqda, pambьq təsvir edilmişdir.

Milli qostjumlar gejinmiş oqlanlarьn və qızlarьn qolonnalarь kecir. Onlar, qydrətli vətənimizin xalqlarьnьn xoşbaxt həjatьnь tə'min edən bəjyk Stalinin portretini daşьjьrlar. Mejdanda ikinçi plaqat acьlьr. Onun yzərində belə jazьlmьşdьr: «Bizim mydafiə vasitələrimiz var». Syngyləri hərbi vəzijjətdə tutmuş pijadələr gedirlər, səvarilər caparaq kecirlər.

Sonunçu plaqat acьlьr: «Bizim mydafiə edəçək adamlarьmьz var». Sportsmenlərin qolonnasь gərynyr. Onlarьn daşьdьqlarь şyarlarda jazьlmьşdьr: «170 millionlu patriotlar bizim sərhədlərimizin toxunulmaz lьqьnь tə'min edirlər».

Parad, fizqultura bajramь ilə qurtarьr.

Havanьn qejri mysaid olduquna baxmajaraq, S. M. Kirov adьna mərkəzi qultura və istirahət parqь (Leninqrad) minlərlə gəzənlərlə doludur. Gyndyz «Dinamo» və «Spartaq» fizqulturacьlarьnьn «dostluq prizi» ycyn joldaşçasьna jarьşь olmuşdur.

Parqьn su stadionunda suda yzmək və su ojunlarь jarьşlarь, fizqultura şəhərçijində— valejbol jarьşlarь, Tirdə—atьş jarьşlarь kecirilmişdir. Axşam Srednaja Nevada şverbotlarьn, jaxtalarьn, squterlərin jarьşь və elkənin ən jaxşь yzycylərinin suja nymunəlik sьcrajьşlarь olmuşdur.

«Dinamo» stadionunda qьzьlbajraqlь Baltikin 13-cy spartakiadasь olmuşdur. Bu spartakiadada 1.500 qьzьlflotcu, qomandir və onlarьn ailə yzvləri iştirak etmişdirlər.

Şimali Osetijada Fizqulturacь gyny bajramь «Piq Niqolajeva» təpəsinə alpinistlərin cьxьşь ilə başlamьşdьr. 98 adam təpəjə cьxmaqda iştirak etmişdirlər.

Bakыda «Dinamo»-nun şəhər stadionunda Qaspi hərbi flotilijasьnьn spartakiadasь icьlmьşdьr.

Tbilisi şəhərinin stadionlarь və sport mejdanlarь əlvan flaqlarla, fizqulturacьlarьn ən jaxşь dostu Stalin joldaşьn və onun sadiq silahdaşlarьnьn portretləri ilə bəzədilmişdir. Gənclər özlərinin jyksək sport ustalьqlarьnь nymajiş etdirmişdirlər. Fizqulturacьlar bajramь geçə jarьsьna kimi davam etmiş, mahnılar uzun vaqt səslənmişdir. Xoşbaxt sovet gənçləri bu mahnılarda vətəni və bu şad həjatь verən Stalin joldaşь tərənnym etmişdirlər.

Minsqdə, Aşxabadda, Qorkidə, Xarqovda, Novosibirsqdə, Qroznidə və Sovet Ittifaqьnьn başqa şəhərlərində dəxi Ymumittifaq fizqulturacь gynynə həsr edilmiş sport bajramlarь və nymajişlər olmuşdur. (TASS).

Deputat Məmməd Nəçəfov joldaş YIQ(b)P qandidatlьqьndan yzvlyjə qəbul edilmişdir

EQ(в)P Zəngibasar rajon qomiteti bjurosu, ESSR Baş Soveti deputatь A. Neçili kənd sovet sədri Məmməd Nəçəfov joldaşь YIQ(в)P qandidatlьqdan yzvlyjə qəbul etmişdir.

Sadьx Əlijev

Partijamьzьn qьzыl fonduna propaqanda və agitasija hava və su kimi lazьmdьr

Stalin joldaş YIQ(в)P-nin XVIII Qurultajьndakь ma'ruzəsində qadrlarьn secilməsi, irəli cəkilməsi, jerləşdirilməsi, onlarьn tərbijələndirilməsi sahəsində partijanьn qarşьsьnda olduqça bəjyk və məs'ulijjətli vəzifələr qojmuşdur.

Stalin joldaş qadrlara partija və dövlətin qьzыl fondu adьnь vermiş, onlarьn qədrini bilməji, onlara hörmət etməji qarşьja qojmuş, qadrlarь qajqь ilə jetişdirməji, hər bir artan işcijə irəliləmədə kömək etməji və jeni gənç qadrlarь vaqtьnda çəsarətlə irəli cəkməji və bytyn iş sahələrindəki qadrlarьmьza çəmijjətin inkişaf qanunlarьnь öjrənməkdə, marqsizm-leninizm elminə jijələnməkdə kömək etməji bytyn partija təşkilatlarьna tapşьrmьşdьr.

Stalin joldaşьn bu tarixi göstərişləri partijanьn və dövlətin qarşьmьzda qojduqu vəzifələrin jerinə jetirilməsi uqrunda bytyn partijalь və partijada olmajan bolşeviqlərin məs'ulijjət hissini həmişəkindən daha artьq coxaltmьşdьr.

Partijamьz, dyşmənlərə qarşь mybarizədə joxlanьlmьş, praqtiki işdə sьnaxdan cьxmьş coxlu jeni qadrlar jetişdirmişdir. Trotskist-buxarinci naçinsləri partija darmadaqьn edərək minlərlə jeni qadrlarь rəhbər işlərə çəsarətlə irəli cəkmiş və bu adamlar indi öz vətəninə, öz xalqьna inam və sədaqətlə qulluq edir, bolşeviqlər partijasьnьn və rəhbərimiz Stalin joldaşьn göstərişlərini şərəflə jerinə jetirirlər.

Qadrlarь və bytyn partijalь və partijada olmajan bolşeviqləri partijamьzьn tələbi səvijjəsinə qaldьrmaq ycyn, bəjyk imkan—partijamьzьn tarixinin ensiqlopedijasь olan «YIQ(в)P Tarixinin Qьssa qursu» dərsliji jaradьlmьşdьr.

«YIQ(в)P Tarixinin Qьssa qursu»nun buraxьlьşь və «YIQ (в) P Tarixinin Qьssa qursu»nun buraxьlmasь ilə əlaqədar olaraq partija propaqanda işinin jenidən qojuluşu haqqьnda YIQ (в) P MQ-nьn tarixi qərarь bytyn partijamьzьn, o çymlədən Ermənistan partija təşkilatlarь həjatьnda bəjyk çanlanma əmələ gətirmişdir. Partija propaqanda işləri kökyndən jenidən qurulmaqa başlamьş, partija yzv və qandidatlarьnьn YIQ (в) P-nin şanlь tarixini öjrənməjə marqsizm-leninizm əsaslarьna jijələnmək həvəslərini daha da artьrmьşdьr.

«YIQ (в) P Tarixinin Qьssa qursu»nun bytyn fəsillərini oxujaraq, YIQ (в) P-nin MQ «partija propaqanda işlərini jenidən qojuluşu haqqьnda»ki qərarьnь dərindən öjrənərək Ermənistanьn partijalь və partijada olmajan bolşeviqləri—fəhlələr, qolxozcular, intelligensija «YIQ (в) P Tarixinin Qьssa qursu»nun bəjyk əhəmijjətini dərindən anlamьşlar ki, «YIQ(в)P Tarixinin Qьssa qursu»— marqsizm-leninizm əsas biliklərinin dərin elmi ensiqlopedijasь-bolşevizmin jeni ideja silahь olub, qadrlarьmьzь revoljusion teorija ilə silahlandьrmaq, partijalь və partijada olmajan kytlələrin sijasi sajьqlьqьnь jyksəltmək ycyn bəjyk bir vasitədir.

Ermənistan partija təşkilatlarь YIQ (в) P MQ-nьn 14 nojabr 1938-çi il tarixli qərarьnь dərindən öjrənərək bu qərarь həjata kecirmək və kytlələrin partija tarixini öjrənmək işini təşkil etmək jolunda gəzə carpan işlər görmüşlər.

EQ (в) P MQ və Şəhər Qomitetləri janьnda leqtor qruppalarь təşkil olunub, bu leqtorlar şəhər və kəndin qommunistləri ycyn, partija tarixini öjrənənlər ycyn Lenin və Stalin əsərlərinə dair leqsijalar oxujurlar.

Jerevan Şəhər Partija Qomitetinin L. P. Berija adьna propaqandist evi və şəhər partija qabinetləri xətti ilə coxlu fərdi qonsultasijalar kecirilmişdir.

Şəhər və rajon partija qomitetləri xətti ilə bir cox propaqandist və qonsultantlar jenidən secilib itəsdiq edilmişdir.

Minlərçə aqtivistlər—fəhlələr, qolxozcular, qulluqcular və intelligentlər YIQ (в) P Tarixini təkbaşьna həvəslə öjrənirlər.

Lakin bu myvəffəqijjətlərlə birlikdə partija propaqanda işinin jenidən quruluşu sahəsində bir sьra partija təşkilatlarьnьn bəjyk noqsanlarь da vardьr.

Istər şəhər və istərsə kənd partija təşkilatlarьnьn bə'ziləri hələ indijə kimi myəjjən edə bilməmişlər ki, təkbaşьna öjrənənlərdən kim hansь fəslə catmьş, nə kimi cətinliklər cəkirlər. Qarabaqlar rajonunun Kolanlь, Vedi rajonunun Tajtan kəndlərində bir coxlarь «biz col işi ilə məşquluq» dejə dərsliji belə varaqlamamьşdьrlar. Vedinin əmanət qassasь, banqьn işçiləri partija tarixini öjrənməkdə cox geri qalьrlar.

Bu vəzijjət Zəngibasar, Basarkecər və Sisjan rajonlarьnda da jaxşь dejildir.

Qotajq rajonunun mərkəzində təşkil olunmuş 3 dərnək istənilən qədər iş gərə bilməmişdir. Bu rajonun Razdan, Jelqovan, Başgyq və Gəmrəz kənd qommunistlərinin səvijjələri olduqça aşaqьdьr. Qommunistlər isə tarixi öjrənməjə cox az vaqt sərf edirlər.

Qomsomolcular ycyn də partija tarixini öjrənmək işinin qojuluşu o qədərdə jaxşь dejildir.

Şəhər və rajon partija təşkilatlarь tərəfindən partija tarixinə aid leqsijalarьn kejfijjəti işinə lazьmi fikir verilmir.

Jaxşь hazьrlanmьş leqsijanьn həm partija tarixini jaxşь öjrənmək, həmdə leqsijalara sistematik iştirak etmək ycyn cox bəjyk əhəmijjəti vardьr. Halbuki bə'zi leqtorlar hazьrlanmamьş leqsija oxumaqa gəlirlər.

Bu vəzijjət Amasija, Qarabaqlar, Spitaq, Vaqarşabad və Hoqtemberjan rajonlarьnda cox olmuşdur.

Kənd qommunistləri, xysusilə uzaq rajonlarьn qommunistləri ycyn az leqsijalar təşkil olunur. Stepanavan, Içevan və digər rajonlardan bu barədə coxlu siqnallar gəlir.

Axta, Talin və digər partqabinetləri də pis işləjirlər. Axta rajon partqabineti mydiri qonsultasija tə'jin etmiş, işin pis təşkili nəticəsində qonsultasija proval olmuşdur.

Partija təşkilatlarь partija propaqanda işinin jenidən qurulmasьnьn qurtarmasь haqqьnda ciddi dyşynməli və partija propaqandasьnьn jenidən qurulmasь haqqьnda YIQ(в)P MQ qərarьnь sarpmadan həjata kecirmək ycyn onlardan asьlь olan bytyn elcyləri ələ almalьdьrlar.

Propaqandistlərin secilməsi və təsdiq olunmasь və bununla birlikdə partija tarixini öjrənən dərnəklərin təşkilini qurtarmalьdьrlar.

Partija tarixini öjrənənlərə hər tərəfli jardьm, onlarьn səmərəli işləri ycyn hər şəraitin jaranmasь təşkil edilməlidir.

Rajon partija qomitetləri partqabinetlərin rəhbərlijini öz əllərinə alьb, bu partqabinetləri partija tarixini öjrənənlərə kömək ycyn həqiqi mərkəzə cevirməlidirlər.

Qomsomolcularьn partija tarixini öjrənmək işinə hər tərəfli jardьm edib, onlara hazьrlьqlь propaqandistlər vermək partija rajqomlarьnьn borçudur.

Partijamьzьn və Stalin joldaşьn göstərişlərini həmişə xatьrladaraq intelligensija arasьnda gyndəlik işləri gyçləndirməlijik. Respubliqamьzьn partija təşkilatlarь qadrlarь öjrənmiş, cox gözəl talantlar, jeni təşkilatcьlar və məharətli işçilər aşkara cьxarmьşdьr ki, indi bu adamlar partija, dövlət və təsərryfat işlərinə jerləşdirilmişlər.

Partija, dövlət və təsərryfat xadimi olmaq—öz vətəninə, öz xalqьna inam və sədaqətlə qulluq etmək deməkdir.

Partijamьzьn və dövlətimizin qьzыl fondu-qadrlar olduqça bəjyk bir qyvvədir. Bu qyvvə məqlubedilməzdir, cynki, öz təşəbbysyny göstərməjə geniş imkanь vardьr, cynki bu qyvvə möhkəmlənir.

Partijamьzьn XVIII Qurultajьnda rəhbərimiz Stalin joldaş partija yzvlərinin və qadrlarьn marqsizm-leninizm tərbijəsi məsələsini tam kəskinliji ilə qarşьja qojmuşdur.

Stalin joldaş demişdir:

—«...Bir elm sahəsi vardьr ki, bunu bilmək bytyn elm sahələrindəki bolşeviqlər ycyn məcburi olmalьdьr, —bu da çəmijjət haqqьnda, çəmijjətin inkişaf qanunlarь haqqьnda, sosializm quruluşunun inkişaf qanunlarь haqqьnda, qommunizmin qələbəsi haqqьnda marqsizm-leninizm elmidir».

Qadrlarьmьzьn marqsizm-leninizm elminə jijələnməsi işində indi partija təşkilatlarьnьn qarşьsьnda cox bəjyk vəzifə durur. Bu da ondan ibarətdir ki, partija təşkilatlarь bytyn iş sahələrindəki qadrlarьmьzьn marqsizm-leninizm elminə jijələnməsi işini təşkil etsin və bu işdə onlara jaxьndan kömək etsin. Lakin göstərmək lazьmdьr ki, elə rajon partija qomitetləri və onlarьn agitasija, propaqanda şe'bələri vardьr ki, onlar hələ bu işdən kənarda durmuşlar. Ajrь-ajrь rajonlarda bə'zi işçilər gyman etmişlər ki, madam ki, təkbaşьna öjrənmək ysulu var, demək bu sahədə rajon və ilk partija təşkilatlarьnьn gərəçəji bir iş qalmьr.

Bu fikirdə olanlar tamamilə janьlьr və cox bəjyk səhv edirlər. Bolşeviqlərin özbaşьna axьn ymmidinə buraxьlan hec bir iş joxdur!

Partija, dövlət və təsərryfat işlərinə coxlu jeni adamlar gəlmiş və gəlir. Partija təşkilatlarьnьn vəzifəsi qadrlarьmьza çəmijjətin inkişaf qanunlarьnь bilməkdə, marqsizm-leninizm elminə jijələnməkdə kömək etməkdir.

Partijamьzьn XVIII Qurultajьnьn qərarlarь və bu qurutlajda rəhbərimiz Stalin joldaşьn ma'ruzəsi bytyn partijalь və partijada olmajan bolşeviqləri jeni qələbələr ycyn ruhlandьrmьşdьr.

Vətənimizin millionlarla patriotlarьnьn, qurultajьn qərarlarьnь və Stalin joldaşьn tapşьrьqlarьnь jerinə jetirmək uqrunda bəjyk hərəkatь başlanmьşdьr. Stalin tapşьrьqlarьnь jerinə jetirmək ycyn xalq arasьnda sosializm jarьşь və staxanov hərəkatь genişlənir, vətənimizin hər bir patriotu öz vətəninin daha da məqlubedilməz qalaja cevrilməsi ycyn özynyn bytyn energija və bacarьqьnь sərf etməjə calьşьr.

Partijamьz həmişə qommunizm qələbəsi uqrunda mybarizəjə başcьlьq edən qadrlar jetişdirmiş, jetişdirir və bundan sonra da jetişdiraçək və onlarь marqsizm-leninizm elmi ilə silahlandьraçaqdьr.

AZƏRBAJÇAN SSR 1-çi CAQIRIŞ BAŞ SOVETININ IKINÇI SESSIJASINDA

Azərbajçan jazısının latın əlifbası oqrafiqasından rus əlifbası oqrafiqasına kecirmək haqqında

Azərbajçan SSR xalq maarif qomissarı M. MƏMMƏDOV joldaşın mə'ruzəsi *)

Deputat joldaşlar!

